# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Elnur Cabbarov Vətən müharibəsində canından keçən oğullardandır*



Əslən Laçın rayonunun Qarakeçdi kəndindən olan Elnur torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak edib. O, öz həyatını təhlükəyə ataraq döyüş mövqeyindən çıxıb və yaralı yoldaşlarına köməyə gedib. Noyabrın 5-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Vətənə əmanət etdiyi üzünü görmədiyi iki aylıq qızı var.

*Vətən müharibəsində şəhid olan qəhrəman oğullarımızdan biri*



Pərviz Ələsgərov 27 sentyabr 1984-cü ildə Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. Kəşfiyyatçı idi...Ailəli olan hərbçimiz 2 oğul atası idi.

Müharibə başlayan gün öz qrupu ilə düşmənin 3 postunu ələ keçirib. İçində düşmən zabitləri olan 2 ədəd UAZ markalı maşınları partladıb, 20-yə yaxın erməni öldürüb. Kəşfiyyatçımız yaralanmasına baxmayaraq, döyüşdə qalıb və... Tarix: 2 oktyabr... Pərviz Ələsgərov Kəlbəcər rayonunun Lev kəndi istiqamətində gedən döyüşlərdə Ağdağ yüksəkliyində snayper gülləsindən aldığı zərbə nəticəsində şəhidlik zirvəsinə ucaldı...

Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunan şəhidimiz Daşkəsən rayonunun Şəhidlər xiyabanında torpağa tapşırılıb.

*Unutmayaq, unutdurmayaq!*



"Laçının azad olunmasına görə" və"Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz əsgər Kənan Dadaşzadə.

01.06.2001-ci ildə Beyləqan rayonu Örənqala qəsəbəsində anadan olan Dadaşzadə Kənan Elman oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 29.09.2020-ci il tarixdə Talış kənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

*Əmanətin əmanətimizdir*



"Cəbrayılın azad olunmasına görə" və"Vətən uğrunda" medalları ilə təltif olunan qəhrəman Şəhidimiz MAXE Elnur Rüstəmov.

01.12.1986-cı ildə Beyləqan rayonu Kəbirli kəndində anadan olan Rüstəmov Elnur İmayıl oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 08.10.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Şəhidimizin 10 yaşlı oğlu İsmayıl, 9 yaşlı oğlu Nail və 5 yaşlı oğlu Azər Vətənə əmanət qalıb.